

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 161 (23.323)

*30 avqust 2019-cu il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Əhalinin siyahıyaalınması mühüm əhəmiyyətli dövlət tədbiridir

***Məlum olduğu kimi, cari ilin oktyabr ayında əhali haqqında demoqrafik, iqtisadi və sosialməzmunlu daha geniş məlumatların əldə edilməsi məqsədilə növbəti siyahıyaalma keçiriləcəkdir. Bu mühüm tədbir dövlət miqyasında əhəmiyyət daşımaqla onun mahiyyəti və məqsədilə bağlı məlumatların verilməsi də aktuallıq kəsb edir.***



Cəmiyyətin ən böyük sərvəti, şübhəsiz, insan kapitalıdır. Bu kapitalın kəmiyyət və keyfiyyət prizmasından düzgün qiymətləndirilməsi və ondan istifadə məsələləri istər regional, istərsə də milli səviyyədə dövlət idarəetməsinin mühüm elementlərindən biridir. Dövlətin sahib olduğu insan resurslarının statistik məlumat bazasının hazırlanması üçün keçirilən əhalinin siyahıyaalınması da, bu mənada, hər hansı bir ərazinin keçdiyi tarixi inkişaf yoluna qiymət verilməsi üçün mühüm dövlət əhəmiyyətli kampaniyadır.

Demoqrafik məlumatlar cəmiyyət həyatının bütün sahələri ilə qarşılıqlı əlaqəli olub, son nəticədə, sosial-iqtisadi inkişafa da öz təsirini göstərən əhəmiyyətli amildir. Təsadüfi deyildir ki, gələcəyə doğru inkişaf konsepsiyaları hazırlanarkən ali məqsədlər arasında insan inkişafı, onun uzunömürlülüyü, təhsil və rifahlarla əhatə olunma səviyyəsi, habelə urbanizasiya proseslərinə olan meyillilik, məskunlaşma, xüsusən ucqar ərazilərdə geniştərkibli ailələrin həmişəlik kök salması kimi perspektivlər ön planda tutulur. Buna görə də hər bir ölkənin və onun ayrı-ayrı regionlarının gələcək inkişaf konsepsiyasını demoqrafik məlumatlarsız təsəvvür etmək qeyri-mümkündür.

Əhalinin siyahıyaalınması demoqrafik məlumatların alınması üçün klassik və hazırda da ən populyar tədbirlərdən biridir. Antik dövrdə də dünyanın müxtəlif ölkələrində yaşayan əhalinin siyahıyaalınması üçün müəyyən cəhdlər olub. Hələ qədim Misir, Yunanıstan, Hindistan, Çin və Yaponiya kimi dövlətlərdə və orta əsrlərdə Avropada aparılan epizodik siyahıyaalma işləri əhalinin sayı haqqında məlumatların alınması dövlətin ümumi gücü haqqında nəticəyə gəlinməsinə xidmət edirdi. Tarixdə ilk tam-miqyaslı əhalinin siyahıyaalınması tədbiri 1790-cı ildə ABŞ-da aparılıb.

Şübhəsiz, belə tədbirlər hələ demoqrafik problemlərin olmadığı, yaxud çox az şəkildə hiss edildiyi bir dövrdə baş versə də, müasir dövr planetdə insan sayının artması, miqrasiya, məcburi köç kimi əhali məskunlaşmasına birbaşa təsir göstərən hadisələrin çoxalması, bunların da nəticəsində demoqrafik proseslərin idarə olunmasının çətinləşməsi ilə xarakterizə edilir. Dünyada ərazisinə və sahib olduğu təbii ehtiyatların həcminə görə əhali sayının azlığından, yaxud, əksinə, ifrat dərəcədə çoxluğundan əziyyət çəkən, belə problemləri milli təhlükəsizlik səviyyəsində gündəmdə saxlayan ölkələr xeyli saydadır.

Əhalinin siyahıyaalınması müstəqil ölkəmizdə də dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu mühüm dövlət tədbiri BMT-nin tövsiyələrinə uyğun olaraq ölkəmizdə hər 10 ildən bir keçirilir. Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini qazandıqdan sonra ölkəmizdə, o cümlədən muxtar respublikada 1999 və 2009-cu illərdə əhalinin siyahıyaalınması keçirilib. Əhalinin növbəti siyahıyaalınması Azərbaycan Respublikası Prezidentinin "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıya alınmasının keçirilməsi haqqında" 2016-cı il 7 sentyabr tarixli Fərmanına əsasən 2019-cu il oktyabrın 1-dən 10-dək aparılacaqdır.

Qeyd etmək lazımdır ki, 2009-cu ildə muxtar respublikada keçirilmiş siyahıyaalmada əhalinin sayı 398,3 min nəfər olub ki, bunun da 198,3 min nəfərini və ya 49,8 faizini kişilər, 200 min nəfərini və ya 50,2 faizini isə qadınlar təşkil edib. Əhalinin 115,5 min nəfəri və ya 29 faizi şəhərlərdə, 282,8 min nəfəri və ya 71 faizi kəndlərdə məskunlaşıb. 1 may 2019-cu il tarixə muxtar respublikada əhalinin sayı 457 min nəfərə yaxın olub ki, bu da 2009-cu ilin aprel ayında keçirilmiş siyahıyaalma dövründə qeydə alınmış əhali sayından 58,7 min nəfər çoxdur. Müqayisə üçün deyək ki, ikinci siyahıyaalmada əhalinin sayı birinci siyahıyaalma dövründən 44,2 min nəfər çox olub.

Şübhəsiz, ötən 10 il ərzində ölkəmiz və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası əvvəlki dövrlərlə müqayisədə azı yarıməsrlik bir inkişaf yolu keçib. Ölkəmizin sahib olduğu resursların xalqımızın rifahı naminə istifadəsi, insan inkişafı indeksinin dəfələrlə yüksəlməsi və ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artması kimi ümumi inkişaf göstəriciləri əhali sayının artmasına və insanların rifah halının daha da yüksəlməsinə öz təsirini göstərib. Müstəqilliyimizin bəhrəsi kimi əldə etdiyimiz bu nailiyyətlər bu gün sayı 10 milyondan çox olan Azərbaycan Respublikasının vətəndaşlarının gələcəyə doğru inamlarını artırıb və respublikamızın dünya ölkələri arasında yerini möhkəmlətmişdir. Ölkəmizdə və muxtar respublikamızda əhali sayının artması ilə yanaşı, əhalinin yaşayış standartlarının da yüksəlməsi statistika baxımından keyfiyyət göstəricisi kimi diqqəti cəlb edir. Başqa sözlə, əhalinin siyahıyaalınması zamanı əldə olunacaq məlumatlar ölkəmizin və eləcə də muxtar respublikamızın tarixi inkişafı ərzində keçdiyi yolun xronologiyası baxımından da əhəmiyyətlidir.

Əhalinin siyahıyaalınması iqtisadi qərarların verilməsi üçün zəruri informasiya mənbəyidir. Belə ki, dövlət milli gəlirin bölgüsü və yenidən bölgüsü zamanı əhalinin coğrafi bölgələrə görə yerləşməsi, şəhər və ya kənd əhalisi olaraq paylaşması, ucqar və strateji yerləşmə məntəqələri üzrə məskunlaşması, qadın, kişi, yaşlı və gənc kimi sosial təbəqələrin nisbətini əsas tutur, bu zaman hər kəsin mənafeyinin qorunması və dövlətin ali məqsədlərinin həyata keçməsini təmin edir. Odur ki, əhali haqqında ən dəqiq məlumatların əldə olunması baxımından siyahıyaalınma iqtisadi cəhətdən əhəmiyyətlidir.

Əhali haqqında əldə olunan statistik nəticələr iqtisadi, sosial və humanitar məzmunlu elmi araşdırmaların aparılması baxımından çox qiymətli baza məlumatıdır. Belə ki, hər hansı bir ölkə və yaxud onun regionu haqqında danışarkən onun əhalisi, məşğuliyyəti və iqtisadi-mədəni inkişafından istinadlar gətirilir və bunlar tutarlı arqumentlər kimi həmişə dərin elmi dəyərə malikdir. Buna görə də elmi araşdırmalar zamanı qarşıya çıxan problemlərin obyektiv prizmadan dəyərləndirilməsi sahib olduğumuz insan resursları və yaxud iqtisadi fəal əhalinin mövcud və perspektiv potensialının təhlili olmadan mümkün deyil.

Və nəhayət, əhalinin siyahıyaalınması nəticəsində əldə olunan məlumatlar öz bitkinliyi ilə də diqqəti cəlb edir. Belə ki, bu dəfə keçiriləcək siyahıyaalma zamanı əvvəlkilərdən fərqli olaraq sorğu vərəqəsinə ilk dəfə daxil edilmiş əlilliyə dair suallar sağlamlıq imkanları məhdud uşaqların və əlilliyi olan şəxslərin mənzil-məişət şəraiti, təhsili və məşğulluğu haqqında yeni məlumatların əldə edilməsinə şərait yaradacaq. Buna görə də deyə bilərik ki, belə və bu qəbildən olan digər demoqrafik məlumatların əldə olunması ölkəmizdə həyata keçirilən sosial dövlət konsepsiyasının tam şəkildə reallaşdırılmasına, növbəti dövrdə cəmiyyətin davamlı və tarazlı inkişafına şərait yaradacaq.

**Əli CABBAROV**

*Son illər Ordubadda tikinti-quruculuq prosesləri geniş vüsət alıb. Təkcə keçən il rayonda 21 müxtəlif təyinatlı obyektin tikintisi başa çatdırılıb, 15 obyektin tikintisi, yenidən qurulması və əsaslı təmiri davam etdirilib. Hazırda quruculuq işlərinin yerinə yetirildiyi ünvanlardan biri də Vənənd kəndidir. Rayon mərkəzindən 17 kilometr şimal-qərbdə yerləşən bu yaşayış məntəqəsində kənd və xidmət mərkəzləri, məktəb binası, uşaq musiqi məktəbi, həkim ambulatoriyası üçün binalar inşa olunur.*

## Vənənd kəndində kompleks quruculuq işləri həyata keçirilir





Kənddəki məktəb binası ötən əsrin 70-ci illərində inşa olunduğundan dövrün tələblərinə cavab vermirdi. Müasir üslubda əsaslı surətdə yenidən qurulan 432 şagird yerlik olacaq məktəb binasının qapı və pəncərələri, döşəməsi, arakəsmələri, elektrik və rabitə xətləri, dam örtüyü yenilənib. Ətrafın abadlaşdırılmasına başlanılıb.

Uşaq musiqi məktəbi üçün tikilən yeni bina 3 mərtəbədən ibarətdir. Bu obyektdə də tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilir.

Vənənd kəndində digər quruculuq ünvanı isə kənd mərkəzi üçün inşa olunan ikimərtəbəli binadır. Burada inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının ərazi ilk təşkilatı, poçt, mədəniyyət evi, kitabxana, rabitə evi, polis sahə və baytarlıq məntəqələri üçün hərtərəfli şərait yaradılacaq.

İnşa olunan həkim ambulatoriyası isə kənd məktəbi ilə üzbəüz ərazidə yerləşir. Burada da tikinti-quraşdırma işlərinin əksəriyyəti başa çatdırılıb. Əhaliyə nümunəvi ticarət və məişət xidmətləri göstərilməsi üçün bu yaşayış məntəqəsində müasirtipli xidmət mərkəzinin binasında da işlər sürətlə davam etdirilir.

Vənəndlilərə daha bir qayğı isə kənddaxili avtomobil yolunun əsaslı surətdə yenidən qurulmasıdır.

Qeyd edək ki, kənddəki kompleks tikinti-quraşdırma işlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin inşaatçıları yerinə yetirir.

**Abbas SEYİD**

## "Dostluq" un dəyirmanı fəaliyyətini genişləndirir



Naxçıvanda insanların qədimdən bəri taxılçılıqla məşğul olması bu ərazidə dəyirmanların da geniş yayılmasına səbəb olub. Qədim dəyirmanların bir çoxunun günümüzədək gəlib çıxması, dəyirman daşlarının və digər maddi nümunələrin aşkarlanması bunu təsdiq edir. Elmin, texnikanın inkişaf etdiyi müasir dövrdə çox böyük istehsal gücünə malik olan avtomatlaşdırılmış dəyirmanlar işi xeyli asanlaşdırıb. Bununla belə, diyarımızda qədim su dəyirmanlarından bu gün də istifadə edilir, onlar bərpa olunaraq işlək vəziyyətə gətirilir.

Son illər muxtar respublikada yaradılan belə müəssisələrdən biri də Şərur şəhərində yerləşən "Aqrotexservis" Səhmdar Cəmiyyətinin nəzdində fəaliyyət göstərən "Dostluq" un dəyirmanıdır.

Dəyirmanın təcrübəli işçilərindən İlyas Nağıyev bizimlə söhbət zamanı dedi ki, muxtar respublikamızda əhalinin yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlər, atılan addımlar hamımızı sevindirir. Sahibkarlıq fəaliyyətinə belə geniş meydan verilməsi də bu tədbirlərin davamıdır. Öyrəndik ki, sahibkar Adil Məmmədova məxsus dəyirman 2000-ci ildə verilən güzəştli kredit dəstəyi hesabına iki-üç nəfərlə fəaliyyətə başlayıb. Hazırda müəssisədə 10-a yaxın işçi çalışır. Burada işçilərə normal iş şəraiti yaradılıb, onlar xüsusi geyim formaları və servis xidməti ilə təmin olunublar. Müəssisədə müxtəlif çeşiddə yüksəkkeyfiyyətli məhsul emal etmək məqsədilə Almaniyanın bu sahə üzrə qabaqcıl təcrübəyə malik firmalarının istehsalı olan müasir texnoloji avadanlıqlar alınıb, quraşdırılıb. Gün ərzində 17 ton məhsul emal etmək gücündə olan dəyirman tək şərurluların deyil, qonşu Sədərək və Kəngərli rayonları sakinlərinin də una olan tələbatının ödənilməsində böyük rol oynayır.

Buradakı istehsal prosesi ilə tanış olduq. Buğda əvvəlcə beton çəlləyə tökülür, buğdaələyən maşına keçir. Taxıl təmizlənir və məhsul yuyulmaq üçün digər maşına ötürülür. Həmin avadanlıq buğdanı yuyur və qurudur. Yuyulmuş buğda 1-2 saat dincə qoyulur. Sonrakı prosesdə buğdanın üst hissəsi, yəni qabığı soyulur və oradan əsas aparata, döyən avadanlığa ötürülür. Buğda döyülüb un halına salınandan sonra ələyə keçir. Ələk vasitəsilə məhsul birinci növ una, eləcə də kəpəyə ayrılır. Sonra kisələrə doldurulub ağzı tikilərək sifarişçiyə verilir. Burada olarkən alıcı Müzəffər Kərimova söhbət etmək imkanı da əldə etdik. O, üyüdülən unun keyfiyyətindən ağızdolusu danışdı, müəssisənin fəaliyyətindən, xidmətin səviyyəsindən razılığını bildirdi.

Müəssisə ilə tanışlıqdan gəldiyimiz qənaət bu oldu ki, hazırda muxtar respublika iqtisadiyyatında özəl sektor xüsusi yerə və rola malikdir. Təbii ki, bu sektorun inkişafında yerli məhsul istehsalı mühüm rol oynayır. Dövlət tərəfindən sahibkarlığın inkişafına verilən dəstək, həyata keçirilən iqtisadi islahatlar bu sahənin də inkişafına əsaslı töhfələr verməkdədir.

**Gülcamal TAHİROVA**





# Türkiyə Cümhuriyyətinin zəfər günü

*Hər il avqust ayının 30-u Türkiyə Respublikasının Zəfər Bayramı və Türkiyə Silahlı Qüvvələri Günü kimi qeyd olunur.*

Görkəmli dövlət xadimi, istedadlı hərbçi Mustafa Kamal Atatürkün rəhbərliyi altında qurtuluş savaşı aparan türk ordusu düşmənə sarsıdıcı zərbə vuraraq 1922-ci il avqustun 30-da böyük zəfər qazandı. Həmin gün Türkiyə tarixinə Zəfər bayramı kimi daxil oldu. Bu zəfər türk xalqının 1919-cu ildə başladığı istiqlal mücadiləsinin hərb zirvəsi, minlərlə şəhid qanı ilə suvarılan Vətən torpağının düşmən tapdağından xilası idi. Qurtuluş savaşında Azərbaycan xalqı da qardaş Türkiyə xalqına dəstək oldu, döyüşlərdə iştirak edərək şəhidlər verdi.

Böyük tarixi kökə malik olan Azərbaycan-Türkiyə əlaqələrinin əsasında möhkəm dostluq, qardaşlıq və etibarlı strateji tərəfdaşlıq münasibətləri dayanır. Hər iki dövlətin qurucularının – ümummilli lider Heydər Əliyevin və Mustafa Kamal Atatürkün çox güclü siyasi iradəsi, xalqı irəliyə aparmaq əzmi məxsus olduqları xalqı və dövləti yaşadıb, bu gün də yaşadır. Qarşılıqlı dostluq və inam xalqlarımızın rifahına, ölkələrimizin gələcək inkişafına xidmət edir. Azərbaycanla Türkiyənin birgə həyata keçirdiyi iqtisadi layihələr hər iki dövlətin dünyada nüfuzunu getdikcə artırmaqdadır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Bu əlaqələr tarixən qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanır... Əminəm ki, Türkiyə-Azərbaycan həmrəyliyi və strateji müttəfiqliyi birgə səylərimizlə bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq daha da möhkəmlənəcək və genişlənəcəkdir”.***

Ölkələrimiz və xalqlarımız arasındakı möhkəm tərəfdaşlığa Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın bölgələri arasındakı uğurlu əməkdaşlıq da öz töhfəsini verməkdədir. Bu əlaqələrin əsası ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrdə qoyulmuşdur. Ulu öndərin Ali Məclisin Sədri kimi 1992-ci il martın 24-də Türkiyəyə ilk rəsmi səfəri zamanı “Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu” imzalanmışdır.

Hazırda Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı əlaqələr bir çox istiqamətlər üzrə uğurla inkişaf etdirilir. Xüsusilə ordu quruculuğu, iqtisadi-ticarət, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə əlaqələrin inkişafı məmnunluq doğurur. Görülən işlərin davamı kimi, bu il avqustun 15-dən etibarən Beynəlxalq Mülki Aviasiya Təşkilatının qərarına əsasən Türkiyə üzərindən yeni hava dəhlizinin açılması da mühüm əhəmiyyətə malikdir.

Bu il iyun ayında Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimlərində iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir. Səfər zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyə Milli Müdafiə naziri ilə görüşmüş, qarşılıqlı maraqdoğuran məsələlər barədə müzakirələr aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan-Türkiyə əlaqələrinin sarsılmaz olduğunu bildirərək demişdir: ***“Bu gün Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri regionda əmin-amanlığın və sabitliyin qorunmasına mühüm töhfədir. Qarşılıqlı faydalı əməkdaşlıq, həyata keçirilən birgə layihələr strateji tərəfdaşlığımızı daha da möhkəmləndirir”.***

Strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Türkiyə dövlətlərarası münasibətləri getdikcə daha da inkişaf edəcək, möhkəmlənəcək, ölkələrimiz daha böyük zəfərlər qazanacaqlar.

**"Şərq qapısı"**

***Səyahət etmək hər fəsildə gözəldir, xüsusilə də yayda. Bu fəsildə insanlar səyahət üçün havası təmiz, sərin, yaşıllıq və ağacların bol olduğu, həm də yaxşıca gəzib tanıya biləcəkləri yer axtarırlar. Deyərdim ki, bu məkan çox uzaqda deyil. Dünyanın istənilən nöqtəsindən gözəl Naxçıvanımıza gəlib onun səfalı bölgələrində dincələ bilərsiniz. Bu qədim diyar başdan-başa bir cənnətdir. Yolları abad, təhlükəsiz, insanları mehriban, qonaqpərvər, gəzməyə isə kifayət qədər tarixi yerlər, mədəniyyət müəssisələri vardır. Haqqında söhbət açacağım bölgə isə meyvələri, limonu, qayğanağı ilə məşhur, qədim tariximizin izlərini özündə yaşadan, “Azərbaycanın incisi” adlandırılan Ordubad rayonudur. Fərqli təbiəti, iqlimi, abidələri, milli-memarlıq nümunələri ilə tanınan bu bölgə indi də öz qədimliyini qoruyub saxlayır. Buraya ayaq basan insanları da ilk baxışda məhz bu xüsusiyyət cəlb edir.***



*Turizm marşrutları*

# Möcüzəli təbiəti, ecazkar gözəlliyi ilə buraya gələnləri heyran edən Ordubad

Naxçıvan şəhərindən, təqribən, 80 kilometr aralıda yerləşən Ordubad şəhərinə və ətrafındakı kəndlərə mütəmadi işləyən avtobuslar sizi görməyə tələsdiyiniz məkana daha tez çatdıracaq. Landşaft gözəllikləri Naxçıvan şəhərinin çıxışından başlayıb yolboyu sizi darıxmağa qoymayacaq. Zəngəzur silsiləsinin fonunda dərin təəssürat yaradan əzəmətli Haçadağ gözünüzü, Culfa şəhərinə yaxınlaşdıqca Araz çayı mənzərəsini seyr etmək isə könlünüzü oxşayacaq. Ordubad şəhərini şimal və şimal-şərq tərəfdən əhatə edən sərt sıldırımlı dağların mənzərəsi sizi uzaq düşüncələrə qərq edəcək. Bir qolu Ordubadın kəndlərinə, bir qolu Dəstə kəndinə, digər bir qolu isə Ordubada gedən “Dəstəbaşı” deyilən yerə çatdığınızda artıq rayona az bir məsafə qaldığını hiss edəcəksiniz. Özünəməxsus təbiəti ilə seçilən bu rayona daxil olarkən marağı cəlb edən ilk gözəllik Bəlkə və Bərəkə dağlarının görüntüsü olacaq. Bu qeyri-adi şəhərin mərkəzinə doğru irəlilədikcə burada müasirliyin və tarixi gözəlliyin sehrinə qapılacaq, istənilən nöqtədə dayandıqda hansısa bir mənzərəni seyr edə biləcəksiniz. Tarixi binalar, muzeylər, nəhəng Ordubad çinarları, qədim meydanlar – bütün bunlar sizi şəhərlə tanışlığa səsləyəcək. Ordubadı səciyyələndirən Sərşəhər (Şəşəri), Ambaras, Mingis, Kürdatal (mərkəz), Üçtürləngə kimi qədim məhəllələri tanıyacaq, hər məhəllənin meydanı, məscidi, çeşməsi sizdə yeni təəssürat yaradacaq. Hər baxımdan görməli yerləri gəzdikcə heç bir yerdə rast gəlməyəcəyiniz memarlıq üslubu, xüsusi cizgiləri ilə seçilən və əhalinin adət-ənənələrini özündə əks etdirən, planı rəngarəng və özünəməxsus olan yaşayış evləri, materialı cəviz və digər meyvə ağaclarından olan “taqqılbab” və “zəncirbab” qapılar, qədim şəbəkə sənətinin izlərini özündə yaşadan məscidlər, yaşı min illərlə ölçülən, tarixə şahidlik edən çinarlar şəhəri tanımaq marağınızı daha da artıracaq. Füsunkar təbiət möcüzəsi, ilin dörd fəslinin birləşdiyi Göygöl burada dincəlmək istəyənlərə xüsusi zövq verəcək.

Mənbəyi qar sularından mayalanan buz kimi sərin çeşmələr, kəhrizlər, təmiz dağ havası, bol məhsullu meyvə bağları, qədim Şərq üslubunda tikilmiş memarlıq abidələri, zəhmətkeş insanları, istedadlı ziyalıları, qonaqpərvər, safürəkli, təmiz məhəbbətli əhalisi olan Ordubad tarixən bura gəlib-gedən səyyahları, qonaqları da valeh edib. XX əsrin əvvəllərində bölgəni ziyarət etmiş səyyah Nefodov yazmışdı: “Ordubad öz daş-qaşı ilə parıldayan qənirsiz gözələ bənzəyir. Ordubad çinarları təbiət tamaşası, el yaraşığıdır. Bu yurdun çinarları da torpağı kimi qədimdir”.

Ordubadın təmiz havası, suyu, təbiəti, tarixi, mədəniyyəti, yerli əhalisinin adət-ənənələri, milli mətbəx nümunələri ilə tanışlığa həvəslənəcəksiniz. Əgər bu yurda ayaq basmışsınızsa, Ordubad limonu ilə verilən çayın dadına mütləq baxacaqsınız. Ölkəmizdən kənarda da adla tanınan bu limon bölgənin zəngin və füsunkar təbiətinin məhsuludur. Rayonun kəndlərinin hansı birində qonaq olsanız, yerli mürəbbələrlə birlikdə qonaq edilən samovar çayının dadına bir də baxmaq istəyəcəksiniz. Şəhərin mərkəzi meydanında, Cümə məscidinin sağında yerləşən çayxana isə nəinki bölgə sakinlərinin, eləcə də bura gələn qonaqların əsl istirahət məkanıdır. Yaşı əsrlərə bərabər olan çinarların kölgəsi bu istirahəti daha da mənalı edəcək.





İqliminə görə ilin bütün fəsillərində gözəl olan Ordubadın cəlbedici xüsusiyyətlərindən biri də vaxtilə ipəkçilik və ticarət mərkəzi kimi məşhur olmasıdır. Tarixi mənbələrə əsasən Naxçıvan və Kirandan sonra üçüncü şəhər sayılan Ordubad XIII əsrdən başlayaraq Azərbaycanın 260 tümən illik hasilatının toplandığı 21 iri şəhəri sırasına daxil olub.

Ordubad həm də Şərqin qədim mədəniyyət mərkəzlərindən biri kimi tanınıb. İndi də öz tarixini və dünya mədəniyyətinə bəxş etdiyi töhfələri ləyaqətlə qoruyub nəsillərdən-nəsillərə ötürür. Heç təsadüfi deyil ki, Ordubad tarixi şəhər kimi 24 oktyabr 2001-ci ildə UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrsin İlkin Siyahısına daxil edilib.

Onu da deyək ki, insanların diqqətini cəlb edən, dünyanın müqəddəs panteonlarından sayılan, dəniz səviyyəsindən 3900 metrdən də artıq hündürlükdə yerləşən Qapıcıq dağının ətəyində fantastik görünüşü ilə insanı heyrətə gətirən Gəmiqaya abidəsi burada yerləşir. Tivi və Nəsirvaz kəndlərindən şimal-şərqdə möcüzəli biçimdə yaranmış bu abidə haqqında ulu öndər Heydər Əliyev demişdir: ***“O, təkcə təbiətin böyük bir abidəsi olmayıb, eyni zamanda min illərlə insan yaradıcılığının məhsuludur”.***

Sərt və sıldırım qayaların üzərində cızılmış insan və müxtəlif heyvan rəsmləri, yay-oxla keçi ovlanması səhnəsi, piktoqrafik xarakterli rəmzi işarələr və səma cisimləri ilə əlaqədar daş üzərində qazılmış təsvirlər ciddi maraq doğurmaqla qədim türk xalqlarının totemlərlə bağlı inanclarını, həyat və məişət tərzini, mədəni inkişaf yollarını hərtərəfli izləməyə imkan verir. Ordubadın yaşayış məntəqələrindən olan Sabirkənd, Plovdağ və Xaraba Gilan ərazilərində eramızdan əvvəl II-I minilliklərə aid mədəniyyət qalıqları ilə zəngin olan yaşayış yerləri və nekropollar da görənləri təəccübləndirir.

Qiymətli su mənbəyi olan kəhrizlər də buranın qədim tarixindən soraq verir. Başqa bölgələrdən fərqli olaraq yeraltı tunellər şəklində tikilən kəhrizlərin bir çoxu qırxpilləlidir.

Qədim tarixi və arxeoloji abidələri bura gələn qonaqlarda rayon haqqında zəngin təəssürat yaradır. 1990-1992-ci illərdə Ermənistanın işğalçılıq cəhdləri nəticəsində Ordubad rayonunun bir sıra kəndlərində məscid və bir neçə tarixi abidə dağıdılmışdı. Sevindirici haldır ki, dövlət qayğısı ilə Ordubad ərazisində mühüm elmi və tarixi əhəmiyyət kəsb edən nadir abidələr yenidənqurma və tikinti işləri nəticəsində əsaslı surətdə təmir və bərpa edilib.

Burada XIV əsrin yadigarları Mingis, Cümə, XVIII əsrə aid Sərşəhər, Təkeşiyi, Üçtürləngə məscidləri, XIX əsrin Ordubad hamamı, XVII əsrin orijinal tikililərindən sayılan Qeysəriyyə (Zorxana), XVIII əsrə aid Pir Eyvaz türbəsi ulu keçmişimizin tarixi yadigarlarındandır. Ordubadda Məlik İbrahim türbəsi, Əfqan qalası, Babək qalası, Şah dağı, Cahartac abidələri, Gürdətal məhəllə qəbiristanlığında qoç heykəlli çoxlu qəbirlərin mövcudluğu da onun qədim tarixindən xəbər verir.

Şəhərin mərkəzi meydanında ucalan 7 min nəfərlik Cümə məscidi qədim memarlıq abidəsi kimi indi də qonaqları heyrətə salır. 1275-ci ildə tikilən məscidin giriş qapısına vurulmuş lövhədə 1607-ci ildə Şah Abbasın verdiyi xüsusi fərmanın mətni yazılıb.

Şərqin ən böyük riyaziyyatçısı və alimi Nəsirəddin Tusinin, Azərbaycanın görkəmli yazıçısı Məmməd Səid Ordubadinin, kimyaçı-alim Yusif Məmmədəliyevin və digər alimlərin Vətəni olan Ordubad şəhərində Məmməd Səid Ordubadinin, akademik Yusif Məmmədəliyevin, maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyləri, Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi də buraya gələnlərin ən çox ziyarət etdikləri yerlər sırasındadır. Hazırda Tarix-Diyarşünaslıq Muzeyi yerləşən, özünün arxitektura xüsusiyyətləri, ornamentləri, kompozisiya quruluşu və tərtibatı ilə seçilən Qeysəriyyə memarlıq abidəsi ən nadir incilərdəndir. Bu bina bir böyük və ona bitişik 16 kiçik günbəzdən ibarət olmaqla, gözəl memarlıq üslubunda tikilib. Burada ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən foto və yazılı mənbələr, Ordubadın görkəmli elm xadimləri, yetirmələri, qəhrəmanları haqqında məlumatlar sizdə dərin təəssürat yaradacaq.

Rayonun Dəstə, Vənənd, Əylis, Nüsnüs və başqa kəndlərində olan abidə və məscidlər təkcə dini ziyarətgahlar kimi deyil, həm də tikinti, arxitektura xüsusiyyətlərinin orijinallığına görə diqqəti cəlb edir. Nüsnüs kəndində böyük ziyarətgaha çevrilmiş XVI əsrin yadigarı olan Qırxkimsənə piri son illərdə ən çox ziyarət edilən yerlərdən biridir.

Ordubad təkcə tarixi abidələri ilə deyil, həm də zəngin mətbəx nümunələri ilə insanları cəlb edir. Qayğanaq, paxlava, daş küftəsi, əriştə aşı, quru meyvələr və adını sadalamadığımız onlarla belə məşhur nemətləri diqqəti çəkir. Bağlar diyarı kimi tanınan Ordubadda yetişdirilən ərik, şaftalı, cəviz və digər meyvələrin misli-bərabəri yoxdur. Tanınmış səyyah Hacı Zeynalabdin Şirvani “Bustanüs-səyahə” kitabında yazırdı: “Ordubad ürəkaçan gözəl bir qəsəbədir. Ora adama fərəh verən yerdir. Onun möhkəm qalası, bol suyu və çoxlu bağları vardır. Meyvəsi bol və dadlıdır. Havası insana sağlıq verir. Adamları surətcə gözəldir”.

*Bu gün də özünün yüksək intellektli ziyalıları, zəhmətsevər insanları, dövlətçiliyə sədaqətli əhalisi ilə tanınan Ordubad tanışlıq turizminin əsas mərkəzlərindən biri kimi həm gəzib-görmək və dincəlmək, həm də ağız dadını dəyişmək üçün ən gözəl seçimdir.*

**Güntac ŞAHMƏMMƏDLİ**

# Türk təsviri sənətini dünyada tanıdan naxçıvanlı rəssam

***Naxçıvan torpağının yetirməsi, görkəmli rəssam İbrahim Səfiyev (1898-1983) XX əsr Türkiyə rəssamlıq sənətinin ən böyük nümayəndəsi olub. 10 mindən artıq rəsm əsərinin müəllifi İbrahim Səfiyev müasir türk təsviri sənətində ən məhsuldar fırça ustası kimi tanınıb. Türkiyə rəssamlığında özünün yaradıcılıq məktəbi, fırça ustalarının öncülü olmuş bu böyük sənətkar ilk rəsm əsərlərini Azərbaycanda, Naxçıvan torpağında yaradıb. Belə ki, hələ 1913-cü ildə çəkdiyi "Araz balıqçıları" və bir az sonra meydana çıxan "Köç" əsərləri onun gələcəyin böyük rəssamı olacağından xəbər verirdi. Türkiyədə İbrahim Səfiyev haqqında nəşr olunan kitabda əksini tapan bir müsahibədə bu sənət korifeyi həmin məsələyə də toxunub, XX əsrin yetmişinci illərini – keçmiş günləri xatırlayaraq bildirib: "Qafqazda incəsənətə qarşı böyük maraq vardı. Qızlar rəngbərəng xalçalarda arzularını, diləklərini naxışlara çevirərkən oğlanlar həsir, ağacoyma kimi el sənətkarlığı ilə məşğul olardılar. Bütün bu gözəlliklər addım-addım məni rəssamlığa yönəltdi. Ətrafımdakı akademiya məzunları, müəllimlərim məni dəstəkləyir, gələcəkdə yaxşı bir rəssam olacağımı söyləyirdilər. Mən isə rus rəssamı Repinin əsərlərini bəyənir, gələcəkdə onun kimi bir rəssam olmağı çox istəyirdim".***



İbrahim Səfiyev realist rəssamdır və ömrünün sonuna kimi yaradıcılıq ənənəsinə sadiq qalıb. Sənət fədaisinin əsərləri onu əhatə edən və real olan əşya və hadisələrin təsvirindən ibarətdir. O, mücərrəd mövzulara, demək olar ki, müraciət etməyib. Rəssam realist üsluba üstünlük verməsini belə izah edib: "Mənim sənət anlayışım rəssamlıqda gözəllik axtarmaq və gözəllik yaratmaqdan ibarətdir. Mən gözəlliyi bəyənirəmsə, başqasına da bunu bəyəndirməyə çalışıram. Sənət xalqa bağlı olmalıdır, insanların anlayacağı şəkildə yaradılmalıdır. Mən rəssamlıqda gerçəkçiyəm, portağal çəkirəmsə, yuvarlaq çəkirəm, amma modernist onu künclü-bucaqlı çəkir".



Sənətşünas Süleyman Arısoyun "Türk kültürü" jurnalında çap olunmuş "Sənətkar rəssam İbrahim Səfi" adlı məqaləsində qeyd edir: "İbrahim Səfi yaradıcılıq aləminə gəldiyi ilk günlərdən indiyə kimi realizmə sadiqdir. O, öz yaradıcılıq təcrübəsində dünya incəsənətinin ən mütərəqqi ənənələrini davam etdirir".

İbrahim Səfiyev ensiklopedik yaradıcılığa malik rəssam olub. O, əsərlərini müxtəlif janrlarda – natürmort, portret, mənzərə və kompozisiya janrlarında yaradıb. Onun yaratdığı portret qalereyasına yüzlərlə simalar daxildir. Ən dəyərli portretlərindən biri olan "Atatürkün portreti" onun yaradıcılığının şah əsərlərindəndir. Rəssam müxtəlif illərdə Türk dünyasının lideri Mustafa Kamal Atatürkün portretini böyük sənətkarlıqla əbədiləşdirib. O, ilk dəfə 1925-ci ildə bu mövzuya müraciət edib, XX əsrin 60-70-ci illərində "Atatürkün Samsuna çıxışı" və 1975-ci ildə çəkdiyi "Atatürk" əsərləri



ilə cümhuriyyət qurucusunun parlaq obrazını yaradıb.

İbrahim Səfiyevin Türkiyə mövzusuna və xarici ölkələrə həsr etdiyi əsərləri onun yaradıcılığında üstünlük təşkil edir. "Qara dəniz sahilləri", "Topxana meydanı", "Ankara Maltəpədən", "Caddəbostan", "İzmirdə sərgi köşəsi", "Ankaralının portreti", "Maranqoz Hüseyin", "Ankara qalası", "Boğazda 1935-ci ilin buz axını", "Qaladan Ankara", "Konkord meydanı Paris" kimi tablolar bu qəbildəndir.

Görkəmli sənətkar həm müxtəlif sərgilərdə iştirak edib, həm də özünün 100 fərdi sərgisini reallaşdırıb. O, 1955-ci ildən sonra xarici ölkələrdə sərgi açmağa başlayıb. İbrahim Səfiyev Almaniya, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Rusiya, Fransa, Yunanıstan və digər ölkələrdə yaradıcılıq ezamiyyətində olub, bu ölkələrə aid təsirli, yaddaqalan tablolar yaradıb. Bir faktı qeyd edək ki, onun tək Fransanın ən böyük ikinci şəhəri olan Marseldə səkkiz fərdi sərgisi açılıb. O, Almaniyanın əhalisinin sayına görə üçüncü şəhəri olan Münhenə aid "Münhendə bir qış mənzərəsi", "Münhendə axşam", "Almaniyada Tolsi qəsəbəsi", "Münhendə Hakker Kaller qarşısında" kimi mənzərələri də kətan üzərinə köçürüb. Qeyd edək ki, rəssam ömrünün iki ilini Münhendə yaşamış və həmin əsərlər də onun yaradıcılığının Münhen dövrünə aiddir. O da vurğulanmalıdır ki, beynəlxalq aləmdə nüfuz qazanması avropalı gənc rəssamlarda da ondan dərs almaq istəyi oyadıb. Təsadüfi deyildir ki, tanınmış ingilis rəssamı Conson Baker İbrahim Səfiyevin yetirməsi olub.

Ömrünün sonuna kimi ancaq yaradıcılıqla məşğul olan görkəmli rəssam XX əsr Türkiyə incəsənəti tarixinə adını qızıl hərflərlə yazdıran azərbaycanlıdır. Ölümündən 35 il keçməsinə baxmayaraq, Türkiyədə onun zəngin yaradıcılığına diqqət azalmayıb. Sakarya Universitetinin müəllimi Rumeysa İşıq Yayla görkəmli rəssamın bədii irsini tədqiq edib, "İbrahim Səfi yaradıcılığında Şərq mövzusu" adlı dissertasiya işi yazaraq böyük fırça ustasının əsərlərində Şərq mədəniyyətinin ifadə vasitələrini, xüsusiyyətlərini dərindən araşdırıb.

Ancaq bunlara baxmayaraq, dünya şöhrətli bu görkəmli rəssamın irsi çox az öyrənilib, onunla əlaqədar cəmi üç kitab, bir kataloq işıq üzü görüb. Bu kitablardan birini dostu professor Ənvər Tali Çətin 1990-cı ildə İstanbulda öz vəsaiti ilə nəşr etdirib. "İbrahim Səfi" adlı bu irihəcmli kitabda böyük rəssam haqqında araşdırmalar, müsahibələr, xatirələr öz əksini tapıb. Ənvər Tali adını çəkdiyimiz kitabda belə yazır: "İbrahim Səfi 1960-cı ildən əvvəlki İstanbulun taxta evlərinin, baqqal dükanlarının, kiçik məscidlərinin, çeşmələrin bəzədiyi məhəllələri, tarixi dəyərlə gördüyü hər küçəsini yorulmadan dolaşıb, bu gün tarix olan gözəllikləri təsvir edib. Xəyali şəhər İstanbulun sehrli görünüşünü rəngləri ilə canlandırıb, İstanbul şeirini tablolarına yazıb. Bu tablolar bir araya gətirilərsə, bir İstanbul albomu meydana gələr. Böyük sənətkar Mərmərənin gözləri qamaşdıran günəşli, məhtablı görünüşlərini, Boğaziçinin könüllərə səslənən sehrli gözəlliklərini, Xəlicin, Qalata körpüsünün, İstanbul meydanlarının, camilərinin qəlboxşayan zənginliyini, canlılığını böyük sevgi ilə kətan üzərinə köçürmüşdür".

Həqiqətən də, İstanbul mövzusu böyük sənətkarın yaradıcılığında önəmli yer tutardu. O, uzun illər boyu yaşadığı bu şəhəri təkcə olduğu kimi təsvir etməklə kifayətlənməyib, həm də xəyal gücünü də hərəkətə gətirərək Şərq koloritini müasir bir üslub içərisində bu günün gözü ilə ifadə etməyə nail olub. Zamanın təqdim etdiyi bu keyfiyyətləri qiymətləndirən rəssam yaxın keçmişin sosial dəyişiklikləri arasında tarixləşən və ya qədim mədəniyyətə şahidlik edən səhnələri real boyalarla tamaşaçısına çatdırıb.

İbrahim Səfiyevin dostlarından, tədqiqatçılarından biri də Naci Tərzidir. Bu fırça ustası İbrahim Səfiyev sənətinin çoxsaylı pərəstişkarlarından olub. O yazırdı: "İbrahim Səfi Türkiyəyə rəng anlayışını gətirmiş sənətkardır. Türk rəssamları rəngin nə olduğunu ondan sonra dərk etməyə başladılar. Mən indiyə qədər onun kimi alicənab, sənətinə aşiq olan bir adam görməmişəm. Türk rəsm sənəti İbrahim Səfidən çox şey öyrəndi".

Daha sonra Naci Tərzi sənətkarın ömrü boyu vətən həsrəti çəkdiyini müşahidə etdiyini göstərərək yazır: "İbrahim Səfi daim doğulub böyüdüyü yerlərin xiffətini çəkirdi. Bunu hiss etdirməməyə çalışsa da, mən daim gözlərindəki nisgildən sezirdim. Məncə, İbrahim Səfi bu dünyadan gözləri açıq getdi, çünki 20 yaşında tərk etdiyi doğma yurdunu görə bilmədi".

Başqa bir mənbədə də bu fikri təsdiq edən faktlara rast gəlirik. Belə ki, akademik Rasim Əfəndiyev 1970-ci illərdə Türkiyəyə səfərə gedibmiş. İstanbulda İbrahim Səfiyev ilə görüş ona böyük təsir bağışlayıb. O, tanınmış fırça ustası ilə görüşünü, evində qonaq olmasını belə təsvir edib: "Vaxtımız az olduğundan İbrahim Səfi nəfəsini dərmədən danışır və mənə suallar verirdi. O, çox şeylərlə maraqlanırdı. Tez-tez qəhərlənirdi, elə hey: "Darıxıram, onun üçün darıxıram. Bircə dəfə hüsnünü görə bilsə idim, rahat ölərdim", – deyirdi. Mən dözməyib ondan soruşdum: İbrahim bəy, kimin xiffətini çəkirsiniz? Bu zaman o, əllərini bərk-bərk sıxdığı başından aralayıb arxasındakı divara, oradan asılmış tabloya tuşladı və dedi: "Onun üçün, onun üçün". Divardakı rəsmə yalnız indi diqqət yetirdim, bayaqdan ev bir az qaranlıq olduğu üçün fikir verməmişdim. Bu, İbrahim Səfinin qürbətdə çəkdiyi "Haçadağ" əsəri idi".

Görkəmli rəssamın fırçasının hər telinə hopan Vətən və yurd sevgisi, sonsuz həsrət, genetik yaddaş onun əsərlərinin hər birinə doğma Naxçıvanın bir parçasını həkk edib.

Sovet Azərbaycanında İbrahim Səfiyevin yaradıcılığından, demək olar ki, bəhs olunmayıb. Müstəqillik illərində bu rəssam haqqında mətbuatda bəzi yazılar çap edilsə də, geniş ictimaiyyət onun varlığından, əsasən, xəbərsiz olub. Azərbaycan muzeylərində İbrahim Səfiyevin cəmi 11 əsəri mövcuddur.

Digər milli dəyərlərimiz, mədəni irsimiz



kimi dünya şöhrətli rəssam İbrahim Səfiyevin şəxsiyyətinə, yaradıcılığına da dəyər verən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2018-ci il 17 oktyabr tarixdə "Görkəmli rəssam İbrahim Səfiyevin 120 illik yubileyinin keçirilməsi haqqında" imzaladığı Sərəncam bu sahədə böyük mədəni və ictimai-siyasi əhəmiyyətli hadisə oldu. Sərəncamda göstərildiyi kimi, İbrahim Səfiyevin şəxsiyyəti və yaradıcılığının tədqiqi bütünlükdə hər bir vətəndaş, xüsusilə rəssamlarımız üçün vacibdir. Azərbaycanı xarici ölkələrdə öz yaradıcılıq fəaliyyəti ilə layiqincə təmsil edən rəssam bu gün həyatda olmasa da, onun yaratdıqları öz sənət dəyərini saxlamaqdadır. Adıçəkilən sərəncamın işığında Naxçıvan Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda böyük sənətkarın 54 əsəri nümayiş etdirilib, mətbuatda İbrahim Səfiyev yaradıcılığı ilə bağlı maraqlı məqalələr nəşr olunub, Bakıda Atatürk Mərkəzində görkəmli fırça ustası İbrahim Səfiyevin yaradıcılığına həsr edilmiş elmi-praktik konfrans keçirilib. Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva görkəmli sənətkarın həyat və fəaliyyətinin, sənət irsinin elmi tədqiqi ilə məşğuldur.

*Muxtar respublikamızda görkəmli rəssamın irsinə dövlət tərəfindən diqqət və qayğı göstərilməsi bir ziyalı kimi bizi çox sevindirir. Heç şübhəsiz ki, sərəncamın icrası istiqamətində görülən işlər dünya şöhrəti qazanmış, Türk dünyasının tanınmış naxçıvanlı rəssamı İbrahim Səfiyevin həyat və yaradıcılığının daha geniş şəkildə tədqiqinə, ictimaiyyətə, sənətsevərlərə təqdim olunmasına şərait yaradacaq, müasir gəncliyə, gələcək nəsillərə layiqincə tanıdılmasına imkan verəcək.*

**Əbülfəz QULİYEV**
***AMEA-nın müxbir üzvü***

***Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Dövlət Uşaq Teatrının direktoru, Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidovun 60 illik yubileyi qeyd olunub.***

# Əməkdar artistin yubileyi qeyd edilib



Bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova açaraq muxtar respublikada tanınmış sənət adamlarına göstərilən yüksək dövlət qayğısından bəhs edib, Əməkdar artist Tofiq Seyidovun keçdiyi həyat yolundan və səhnə fəaliyyətindən danışıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bütün sənət adamlarına daim diqqət və qayğı göstərir, onların yubileyləri yüksək səviyyədə qeyd edilir. Bu yubiley tədbiri də həmin ənənənin davamıdır.

Tanınmış rejissor və aktyor Tofiq Seyidovun yaratdığı rəngarəng obraz və personajlar, quruluş verdiyi dərinməzmunlu və aktual ideyaları ilə seçilən səhnə əsərləri onu tamaşaçılara çoxdan sevdirib.

Qeyd edilib ki, Tofiq Seyidov 1959-cu il avqust ayının 2-də Babək rayonunun Zeynəddin kəndində anadan olub. İlk təhsilini Zeynəddin kənd tam orta məktəbində alan Tofiq Seyidov 1978-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutuna daxil olub, 1982-ci ildə həmin ali təhsil ocağının Dram və kino aktyorluğu fakültəsini bitirib. O, 1982-ci ildən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında aktyor kimi əmək fəaliyyətinə başlayıb. 2013-cü ildən quruluşçu rejissor kimi də çalışan Tofiq müəllim "Manqurt", "Nadir şah", "Nadanlıq", "Hacı Qara", "Göy quş", "Qılınc və qələm", "Xəyyam", "Ölülər və dəlilər" və digər tamaşalara uğurlu quruluş verib.

Naxçıvan teatrının səhnəsində Tofiq Seyidov "Əlincə qalası" tamaşasında Şeyx Ömər Osman, "Atamın kitabı" tamaşasında ikinci Məmməd Araz, "Uçurum" səhnə əsərində Əkrəm, "Xəyyam" tamaşasında Xəyyam, "Ölülər və dəlilər" tamaşasında Molla Abbas, "Şeyx Sənan" tamaşasında Şeyx Hadi, "Mənim tanrım gözəllikdir, sevgidir" səhnə əsərindəki Şeyx Sənan və digər obrazları ilə tamaşaçı rəğbəti qazanıb.

Diqqətə çatdırılıb ki, tanınmış sənətkarın əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Belə ki, 2015-ci ildən Naxçıvan Dövlət Uşaq Teatrına rəhbərlik edən Tofiq Seyidov 2016-cı ildə Prezident mükafatına, 2017-ci ildə isə "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adına layiq görülüb.

Natəvan Qədimova çıxışının sonunda yubilyarı təbrik edib, ona möhkəm cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıb.

Tədbirdə Əməkdar artistin sənət dostları – Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Xalq artisti Rza Xudiyev, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva, Xalq artisti Kamran Quliyev, Məhəmmədtağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının bədii rəhbər-direktoru, Xalq artisti Şirzad Abutalıbov və digər sənət dostları çıxış edərək yubilyara ürək sözlərini çatdırıblar.

Sonda Tofiq Seyidov yaradıcılığına yüksək qiymət verildiyinə, göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Rəsm müsabiqəsi keçirilib

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinə hamiliyə verilən gənc rəssamlar arasında "Naxçıvan Muxtar Respublikası – 95" devizi altında rəsm müsabiqəsi keçirilib. Rəssamlar Birliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə keçirilən müsabiqədə Naxçıvan Dövlət, "Naxçıvan" universitetləri, Naxçıvan Müəllimlər İnstitutu və Texniki Kolledcən 12 istedadlı gənc iştirak edib.



Gənc rəssamların müxtəlif mövzularda və janrlarda işlədikləri rəsmlər maraqla qarşılanıb. Doğma diyarımızın tarixi keçmişi, zəngin təbiəti, bugünkü inkişaf prosesləri onların rəsmlərində özünəməxsus çalarlarla öz əksini tapıb.

Müsabiqədə Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva, Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev və tanınmış rəssam Rafael Qədimovun təmsil olunduğu münsiflər heyəti tərəfindən birinci yerə 1, ikinci yerə 2, üçüncü yerə isə 3 nəfər layiq görülüb. Digər gənc rəssamlar isə həvəsləndirici hədiyyələrlə mükafatlandırılıblar.

**✍ Gülcamal TAHİROVA**

## Qədim musiqi alətlərimiz mədəniyyətimizin zənginliyinin nümunəsidir



***Naxçıvandakı arxeoloji qazıntılar zamanı tapılmış qədim musiqi alətləri sübut edir ki, Azərbaycan musiqisi çox zəngin bir tarixə malikdir. Həmin alətlər haqqında məlumata Azərbaycan şairlərinin əsərlərində də rast gəlirik.***

Nizami Gəncəvinin məşhur "Xəmsə"sində musiqi yaradıcılığının ayrı-ayrı janrları, müxtəlif çalğı alətləri və ifaçılıq sənəti haqqında maraqlı fikirlər vardır. Onun poemalarında Azərbaycanda geniş yayılmış 30-dan artıq musiqi alətinin adı çəkilir. Bunların arasında saz, çəngi, rübab, ərqanun, ney, şeypur, zurna, təbil, nağara və başqa çalğı alətləri vardır. Məhəmməd Füzuli də öz əsərlərində ney, saz, dəf, şur, ərəs kimi çalğı alətlərinin adını çəkir və onları təsvir edir. Qədim mənbələrdə adına təsadüf etdiyimiz bu musiqi alətlərinin bəziləri tarixin keşməkeşlərində unudulsa da, əksəriyyəti günümüzə qədər gəlib çatıb.

Adətən, qədim musiqi alətlərinin hazırlanmasından, təmirindən söhbət düşəndə ağlımıza ilk olaraq yaşlı insanlar gəlir. Ancaq bu gün Şərur rayonunun Ələkli kənd sakini 28 yaşlı Rəşad Həsənli də 14 ildir ki, bu işlə məşğuldur. O, tarixlərin sınağından keçərək cilalana-cilalana zəmanəmizə qədər gəlib çıxan qədim musiqi alətlərimizə yeni həyat bəxş edir. Rəşad Naxçıvan Musiqi Kollecinin məzunudur. Artıq beş ildir ki, Ələkli kənd musiqi məktəbində tar dərsi deyir. Onun dedikləri:

– Bu sənətə marağım hələ məktəb illərindən var idi. Elə buna görə də təhsilimi musiqi kollecində davam etdirməyə qərar verdim. Tarla tanış olduqdan, onun sirlərini öyrəndikdən sonra bu musiqi alətini təmir etməyi də öyrənmək qərarına gəldim. Bakı şəhərinə yollandım. Orada bu sənətlə məşğul olan yaşlı bir usta tapdım. Bir neçə ay ondan dərslər aldım. Bu gün çox sevinirəm ki, əsrlərin sınağından keçərək bizə ərməğan qalmış bu dəyərli sərvətləri, tarixi kimliyimizi özündə yaşadan qədim musiqi alətlərini təmir etməklə kifayətlənməyib onları hazırlamağı da bacarıram.

Rəşad onu da bildirir ki, Azərbaycan muğamlarını tar və kamançasız təsəvvür etmək mümkün deyil. Tar Azərbaycan simli musiqi alətləri arasında texniki, dinamik imkanlarına görə ən mükəmməl və ən təkmil çalğı alətidir. Ölkəmizdə köklü ənənələrə söykənən bu musiqi alətinin adı gələndə böyük sənətkarlar göz önündə canlanır.

Müsahibim onu da deyir ki, bu vaxta qədər tarın vahid, yəni müəyyənləşdirilmiş ölçüləri mövcud olmayıb. O, tarın hazırlanma prosesindən danışır və bildirir ki, əvvəlcə tut ağacının kötüyü kvadrat şəklində kəsilir, 1-2 il otaq temperaturunda qurudulur. Bu tut gündəyən yerdə bitsə, daha yaxşı olar. Çünki suya yaxın yerdə bitən tut ağacından yaxşı tar düzəltmək olmaz. Kvadrat forma nümunə üzərində xətlənir və çanaq formasına gətirilir. İç və çöl hissəsi yonulduqdan sonra çanağa qol, qola isə kəllə hissəsi birləşdirilir. Kəllə hissəsində aşıq yerləri açılır və aşıqlar burada yerləşdirilir. Qolun üstünə 22 ədəd not pərdəsi dolanır, zəng sim xərəkləri yerləşdirilir. Sonuncu mərhələdə çanaq üzərinə pərdə çəkilir, simlənir və hazır olur.

Qeyd edək ki, Azərbaycan tar ifaçılıq sənəti və onun hazırlanma ustalığı UNESCO-nun Bəşəriyyətin Qeyri-maddi mədəni irsinin Reprezentativ siyahısına daxil edilib.

Müsahibim saz haqqında da danışır. Deyir ki, müasir sazların əsas hissələri qart tut ağacından, qol və aşıqlar isə cəviz ağacından hazırlanır.

Onu da bildirək ki, Rəşadın bacarığı təkcə tar və saz düzəltməklə bitmir, o, milli musiqi alətlərimiz olan kamança, qaval hazırlamaqla bərabər, nadir sənətkarlıq sahələrindən biri olan sədəfkarlıqla da məşğuldur.

Həmsöhbətim deyir ki, sədəf göyqurşağı rənglərini özündə əks etdirən diqqətçəkən, dənizdə və torpaqda tapıla bilən nadir daşlardan biridir. Sadəlik, lütf, bərəkət, uzunömürlülük, cəsarət və qüdrəti təmsil edir. Sədəfin şəfaverici xüsusiyyətə malik olmasına da inananlar çoxdur. Qədimdən bəri insanlar zərgərlik və zinət əşyalarında sədəfi seçiblər. İncə naxışların emalında mozaik, sıva, örtük, mastik kimi üsullar istifadə edilir. Sədəf geometrik formalı bəzəkli və yaxud yapışdırılmış sahəyə tətbiq olunur. Bu qiymətli daşdan gözəl bir sənət əsəri yaratmaq üçün onun müəyyən bir qalınlığı olmalıdır. Dəniz və ya okeanlardan çıxarılan yumşakçalar xüsusi plitələrə bölünür və sonra tətbiq olunacaq sahəyə uyğun formalaşdırılır.

Hazırda "Çiçəklənən Naxçıvan" kompozisiyasının üzərində işləyən Rəşad onu da diqqətimizə çatdırır ki, muxtar respublikamızda milli dəyərlərimizə, sənətə və sənətkara verilən yüksək qiymət onu bu sahədə daha səylə çalışmağa ruhlandırır. O, göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirir.

Sonda onu da qeyd edək ki, Rəşad Naxçıvanda keçirilən "Yaradıcı gənclər festivalı"nda da öz əl işləri ilə iştirak edib. Həmin sənət nümunələri maraqla qarşılanıb.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Seminar-müşavirə olub



Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsində əhaliyə sərnişindaşıma xidməti göstərən sürücülərin iştirakı ilə keçirilən növbəti seminar-müşavirəni Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin şöbə müdiri Elxan Novruzov açıb. Bildirib ki, muxtar respublikamızda digər sahələrlə yanaşı, avtomobil nəqliyyatı sahəsində də əsaslı islahatlar aparılıb. Yol-nəqliyyat infrastrukturunun yenilənməsi, bu sahədə həyata keçirilən müxtəlif tədbirlər avtomobil nəqliyyatı ilə sərnişin daşınmalarının müasir tələblər səviyyəsində qurulmasına əlverişli şərait yaradıb.

Vurğulanıb ki, xidmətin reyd komissiyası Nəqliyyat müfəttişliyi və təhlükəsizlik şöbəsi ilə birlikdə müxtəlif günlərdə reydlər keçirib, şəhərdaxili və rayonlararası marşrutlarda hərəkət qrafikinə nəzarət artırılıb. Keçirilən reydlər zamanı qanunsuz sahibkarlıqla məşğul olan 87 avtonəqliyyat vasitəsinin sürücüsü müəyyən edilib və tədbir görülməsi üçün onlar haqqında məlumat müvafiq təşkilatlara göndərilib.

Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin sektor müdiri Zaur Əliyev çıxış edərək bildirib ki, şəhərdaxili nəqliyyatın intensiv və keyfiyyətli fəaliyyətini təmin etmək üçün tədbirlər görülüb, Xətai məhəlləsində yeni obyektlərin istifadəyə verilməsi ilə əlaqədar 1 nömrəli marşrut xəttinin hərəkət istiqaməti uzadılıb, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə marşrut xətti açılıb. Həmçinin avtovağzalların fəaliyyəti də diqqət mərkəzində saxlanılıb, şəhərlərarası və rayonlararası marşrut avtobuslarının hərəkət qrafiki daha da təkmilləşdirilib. Beynəlxalq sərnişindaşıma xidməti göstərən avtobusların fəaliyyətinə nəzarət gücləndirilib.

✍ **Nail ƏSGƏROV**

## Qapıları gənclərin üzünə daim açıq olan idman obyekti



*İdmanın sağlam həyat tərzi olduğunu yeniyetmə və gənclərə aşılamaq günün vacib məsələlərindən biridir. Bu məsələdə idmanla məşğul olanlar üçün hərtərəfli şəraitin yaradılması isə başlıca amillər sırasındadır. Bu gün muxtar respublikada belə şərait yetərincədir. Belə ki, idmanın kütləviliyinin təmin edilməsində idman komplekslərindən, zallarından, açıq idman qurğularından istifadə etmək üçün hər cür imkanlar var. Bu obyektlər içərisində Şərur Olimpiya İdman Kompleksinin fəaliyyəti də maraq doğurur.*

Bəs bu gün kompleksdən necə istifadə olunur? Muxtar respublikada yaradılmış idman federasiyaları komplekslə işi necə qurublar? Bu və ya bu kimi suallara aydınlıq gətirmək üçün Şərur rayonuna yollandıq.

Tikintisinə 2007-ci ilin iyununda başlanılan kompleksin ümumi ərazisi 9 hektardır, 4 hektar sahədə yaşıllaşdırma işləri aparılıb. Bina sahəsi 12 min kvadratmetr olan idman obyektinə mehmanxana, idman kompleksi, 142 tamaşaçı yeri olan üzgüçülük hovuzu daxildir. Bundan əlavə, kompleksdə 2400 tamaşaçı yeri olan süni örtüklü stadion, tennis kortları, mini-futbol, basketbol və voleybol meydançaları var. Üçmərtəbəli, 60 nəfərlik mehmanxanada hər cür rahatlığı olan 30 otaq, iclas zalı, 68 nəfərlik yeməkxana fəaliyyət göstərir. 2009-cu ildə ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə kompleksin açılışı olub. Onu da deyək ki, rayonda idmanın müxtəlif sahələrinin müasir tələblər səviyyəsində inkişafı məqsədilə kompleks lazımi avadanlıqlarla təchiz olunub.

Bu gün örtülü idman zalı, futbol, voleybol, basketbol meydançaları, ağır atletika zalı daim idmançılarla dolu olur. Bundan əlavə, sağlam həyat tərzi keçirmək istəyənlər trenajor zallarında müntəzəm olaraq məşq edirlər. Kompleksdə üzgüçülüklə də məşğul olmaq mümkündür. Bu idman növlərində peşəkar mütəxəssislərin çalışdığını da vurğulamaq lazımdır. Məşqçilərin nəzarəti altında müntəzəm olaraq məşqlər aparılır. Məşqlər ikinövbəlidir və səmərəli keçirilməsinə nəzarət edilir.

İdman obyekti bir sıra federasiyalarla sıx əməkdaşlıq şəraitində işləyir. Burada təlim-məşq toplantılarının, seminar və nümunəvi çıxışların, müxtəlif idman növləri üzrə ölkə yarışlarının, muxtar respublika birinciliklərinin final mərhələlərinin keçirilməsinə nail olunub.

Kompleksin direktoru Ramil Dadaşov bildirdi ki, bu obyekt muxtar respublikanın ən yaxşı idman müəssisəsi kimi ad qazana bilib. Burada çox mehriban kollektiv formalaşıb. Kompleksə gələn, işçilərlə münasibət quran hər bir kəs bu mehribanlığı görür, onu qiymətləndirir.



Kompleksdə hər gün qaynar idman həyatı yaşanır, idman və sağlamlıq tədbirlərinin miqyası genişlənir, kütləviliyi artır, idmanın inkişaf etdirilməsi məqsədilə ardıcıl yarışlar, təlim-məşqlər həyata keçirilir. Cari ildə də yeniyetmə və gənclərin sağlam böyümələri, ölkədaxili və beynəlxalq arenalarda Naxçıvanı təmsil edə biləcək atletlərin hazırlanması əsas vəzifə kimi qarşıya qoyulub.

Olimpiya İdman Kompleksində bədii gimnastika, üzgüçülük və futbol bölmələri var. Həftənin 2 və 4-cü günləri bədii gimnastika məşqləri keçirilir. Gün ərzində 3 saata yaxın vaxtda kompleksdə bədii gimnastikanın inkişaf etdirilməsinə öz töhfəsini verən məşqçi-müəllim Sevinc Nəcəfova bizimlə söhbətində bildirdi ki, idmançılar kompleksdə məşq etdikdən sonra rahat şəkildə burada istirahət edə bilirlər.

Yeniyetmə futbolçulara bu növün sirlərini öyrədən Bilal Nağıyev isə vurğuladı ki, valideynlər yaradılan şəraitdən çox razıdırlar və uşaqların idmana cəlb edilməsində onların da rolu böyükdür. Peşəkar idmançı yetişdirmək üçün, ilk növbədə, şərait və təmizlik olmalıdır ki, bu da Şərur Olimpiya İdman Kompleksinin timsalında nümunədir.

Həftənin 2 günü kompleksdən istifadə edənlər sırasında üzgüçülüyə marağı olanların sayı getdikcə artır. İdmanın bu növünü tədris edən Türkan Gözəlova söhbətində qeyd etdi ki, üzgüçülüyə marağın artmasına səbəb yaradılan şəraitdir.

Ramil Dadaşov onu da bildirdi ki, Şərur Olimpiya İdman Kompleksi hər zaman yeniyetmə və gənc idmançıları qəbul etməyə hazırdır. Öyrəndik ki, dövlət qurumları da kompleksdə yaradılmış şəraitdən səmərəli istifadə edirlər. Eyni zamanda federasiyaların təlim-məşq toplanışları da kompleksin idman zallarında keçirilir. Obyekt, demək olar ki, istənilən komandanı qəbul etməyə hazırdır və bura təlim-məşq toplanışı keçirmək üçün ideal vəziyyətdədir. Təsadüfi deyil ki, ağır atletika üzrə Azərbaycan yığması bu yaxınlarda kompleksdə təlim-məşq toplanışı keçirib. Eyni zamanda ənənəvi olaraq keçirilən futbol üzrə "Heydər Əliyev kuboku" turnirində çıxış edən MOİK və "Şüvəlan" komandaları da məhz kompleksin qonağı olublar.

Şərur Olimpiya İdman Kompleksi muxtar respublikada fəaliyyət göstərən və qapıları gənclərin üzünə daim açıq olan idman obyektidir. Kompleksin direktoru onu da vurğuladı ki, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin balansında olan bu obyektdə mütəmadi olaraq təmir işləri aparılır, geniş yaşıllıq sahəsi ilə əhatə olunmuş ərazidə abadlıq işləri həyata keçirilir. O, xüsusilə bildirdi ki, bu gün gənclər kompleksdən səmərəli istifadə edir, burada peşəkar idmançılar yetişir, yaradılan hərtərəfli şərait onların uğur qazanmasında mühüm rol oynayır.

✍ **Ceyhun MƏMMƏDOV**


### Bildiriş

"Türkeş-Ticarət" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN-0200398701) fəaliyyətini dayandırdığından ləğv olunur.

### İtmişdir

Şərur rayonunun Şəhriyar kəndində yaşamış İsmayılova Rəxşəndə Həsən qızının adına olan JN-0540 inventar nömrəli, 10214018 kodlu Torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Babək məhəlləsi, bina 2, mənzil 16 ünvanında yaşayan Əsgərova Aybəniz Əyyub qızının adına olan 15309 inventar nömrəli texniki pasport və MH-0025211 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 578